*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 4, s.21-24*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 4, p.21-24*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 4, с.21-24*

**UOT: 37.01:39**
https://doi.org/10.30546/670832.2025.02.1010

# Azərbaycan xalqının milli-mənəvi irsi: pedaqoji aspekt

**Müəllif(lər):**

**Gülmira Əsədova**
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
**E-poçt:** gulmirahaciyeva90@gmail.com

**Açar sözlər:** milli-mənəvi irs, Azərbaycan, mədəniyyət, tarix, ənənələr, identifikasiya, milli dəyərlər

**Annotasiya.** Azərbaycan xalqının milli-mənəvi irsi zəngin tarixi, mədəni və mənəvi dəyərlərə əsaslanan, nəsillərdən-nəslə ötürülən bir xəzinədir. Bu irs xalqın kimliyini, dünyagörüşünü, adət-ənənələrini və milli şüurunu əks etdirir. Tarixi dövrlər boyunca müxtəlif sınaqlara baxmayaraq, Azərbaycan xalqı milli dəyərlərinə sadiq qalaraq onları qoruyub saxlamışdır. Milli-mənəvi irsə xalq ədəbiyyatı, folklor, musiqi və sənət nümunələri, milli adət-ənənələr, dini-etik prinsiplər və ümumbəşəri mənəviyyat daxildir. XXI əsrdə qloballaşma və texnoloji inkişaf fonunda bu irsin qorunması və gələcək nəsillərə ötürülməsi xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqat analitik-deskriptiv və müqayisəli təhlil metodları əsasında aparılmış, milli-mənəvi irsin tarixi inkişafı, təhsil prosesində rolu və innovativ pedaqoji yanaşmalarla inteqrasiyası araşdırılmışdır. Məqalədə rəqəmsal resurslar, virtual muzeylər və interaktiv dərsliklər vasitəsilə milli dəyərlərin gənc nəsildə təşviqi məsələləri təhlil edilmişdir. Nəticədə, milli-mənəvi irsin təhsildə qorunması və təbliği həm milli kimliyin möhkəmlənməsinə, həm də ümumbəşəri dəyərlərin inkişafına xidmət edir. Bu araşdırma milli irsin müasir təhsil sisteminə inteqrasiyası və pedaqoji təsiri istiqamətində elmi yenilikçi yanaşmaları ortaya qoyur.

## The national moral heritage of the Azerbaijani people: pedagogical aspect

**Author(s):**

**Gulmira Asadova**
Nakhchivan Teachers Institute
PhD on Pedagogy
**E-mail:** gulmirahaciyeva90@gmail.com

**Key words:** national spiritual heritage, Azerbaijan, culture, history, traditions, identity, national values

**Abstract.** The national moral heritage of the Azerbaijani people is a treasure based on rich historical, cultural and spiritual values that has been passed from generation to generation. This heritage reflects the identity, worldview, traditions and national consciousness of people. Despite of various challenges along the history, the Azerbaijani people have remained faithful to their national values and have preserved them. The national-moral heritage includes folk literature, folklore, music and art samples, national customs and traditions, religious and ethical principles, as well as universal moral values. İn the twenty-first century in the process of globalization and technological development, the preservation of this heritage and its pass to future generations is of particular importance.

The research was carried on the bases of analytical-descriptive and comparative analysis methods and examines the historical development of the national-moral heritage, its role in the educational process and its integration with innovative pedagogical approaches were searched. The article also analyzes ways of promoting national values among the younger generation through digital resources, virtual museums, and interactive textbooks. As a result, the preservation and promotion of national moral heritage in education contribute both strengthening national identity and development of universal values. This study presents innovative scientific approaches in the direction of integrating national heritage into the modern education system and pedagogical impact.

## Национально-духовное наследие Азербайджанского народа: педагогический аспект

**Автор(ы):**

**Гульмира Асадова**
Нахчыванский институт учителей
Доктор философии по педагогике
**Э-почта:** gulmirahaciyeva90@gmail.com

**Ключевые слова:** национально-духовное наследие, Азербайджан, культура, история, традиции, идентичность, национальные ценности

**Аннотация.** Национально-духовное наследие азербайджанского народа представляет собой богатое историческое и культурное достояние, основанное на духовных ценностях, передаваемых из поколения в поколение. Данное наследие отражает национальную идентичность, мировоззрение, традиции и национальное самосознание народа. Несмотря на многочисленные исторические испытания, азербайджанский народ сумел сохранить верность своим национальным ценностям. К национально-духовному наследию относятся образцы народной литературы и фольклора, музыкального и художественного творчества, национальные обычаи и традиции, религиозно-этические принципы и общечеловеческие духовные ценности. В XXI веке, на фоне глобализации и технологического прогресса, особую актуальность приобретает задача сохранения и передачи этого наследия будущим поколениям.

Исследование выполнено на основе аналитико-дескриптивного и сравнительного анализа; изучены историческое развитие национально-духовного наследия, его роль в образовательном процессе и интеграция с инновационными педагогическими подходами. Рассмотрены возможности использования цифровых ресурсов, виртуальных музеев и интерактивных учебных материалов для популяризации национальных ценностей среди молодёжи. Результаты показывают, что сохранение и продвижение национально-духовного наследия в образовании способствует укреплению национальной идентичности и развитию общечеловеческих ценностей.

**Giriş.** Azərbaycan xalqı zəngin tarixi, mədəniyyəti və mənəviyyatı ilə seçilən, qədim və dərin köklərə malik bir millətdir. Əsrlər boyu formalaşmış milli-mənəvi irsimiz xalqımızın kimliyini, dünyagörüşünü, dəyərlər sistemini və mənəvi bütövlüyünü özündə əks etdirir. Bu irs nəinki keçmişin mirası, eyni zamanda bu günümüzün və gələcəyimizin mayasıdır. Tarixin müxtəlif mərhələlərində Azərbaycan xalqı böyük sınaqlarla üzləşsə də, milli-mənəvi dəyərlərinə sadiq qalaraq onları nəsildən-nəslə ötürməyi bacarmışdır.

Milli-mənəvi irsimizə xalq ədəbiyyatı, adət-ənənələr, mədəni-tarixi abidələr, dini və etik dəyərlər, xalq sənətləri və ümumbəşəri mənəviyyatla vəhdətdə olan milli ruh daxildir. Bu dəyərlər həm xalqımızın mədəni yaddaşını qoruyur, həm də onun sosial-mənəvi birliyinin təməlini təşkil edir.

XXI əsrdə sürətli qloballaşma və texnoloji inkişaf fonunda milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi mühüm vəzifəyə çevrilmişdir. Xüsusilə təhsil, ailə və ictimai institutların bu prosesi dəstəkləməsi, milli-mənəvi tərbiyənin əsas istiqamətlərindən biri kimi qəbul olunması zəruridir. Müasir dövrdə milli irsin tədrisində innovativ texnologiyaların tətbiqində texnologiyanın inkişafı ilə milli-mənəvi irsin tədrisində multimedia resursları, virtual muzeylər, interaktiv oyunlar və elektron dərsliklər geniş istifadə edilir. Bu vasitələr uşaqların diqqətini cəlb edir, onların milli irsə marağını artırır. Azərbaycan pedaqoji elmi sahəsində milli irsin tədrisi və qorunması mövzusu aktualdır. Tədqiqatçılar milli-mənəvi dəyərlərin pedaqoji texnologiyalar vasitəsilə effektiv ötürülməsi, yeni proqramların hazırlanması üzərində işləyirlər.

Azərbaycan xalqının milli-mənəvi irsi onun zəngin tarixinin və mədəniyyətinin əsas dayaqlarından biridir. Bu irs nəsillərdən-nəsillərə ötürülən dəyərlər, ənənələr, adət-ənənələr və mənəvi keyfiyyətlər toplusudur. Azərbaycan xalqının milli irsi tarix boyu qorunmuş, yaşadılmış və inkişaf etdirilmişdir. Bu irsin qorunması və tədrisi bugünkü təhsil sistemində mühüm yer tutur. Azərbaycan xalqının milli-mənəvi irsinin tarixi aspektləri, Azərbaycanın milli-mənəvi irsi qədim dövrlərdən başlayaraq zəngin folklor, ədəbiyyat, musiqi, incəsənət və adət-ənənələrdə öz əksini tapmışdır. Tarixi şəraitdə müxtəlif mədəni təsirlər olsa da, Azərbaycan xalqı öz milli kimliyini qoruyub saxlamışdır. Mədəni irsə aid nümunələr, o cümlədən dastanlar, mahnılar, rəqslər, milli geyimlər və əl işləri xalqın mənəvi dünyasını əks etdirir [1].

Milli-mənəvi dəyərlərin tədris və tərbiyədə rolu müasir dövrdə milli-mənəvi irsin qorunması üçün təhsil sistemində yeni yanaşmalar tələb olunur. Tədqiqatlar göstərir ki, milli dəyərlərin tədrisində müasir pedaqoji texnologiyaların tətbiqi və innovativ metodların istifadəsi gənc nəsildə milli şüurun gücləndirilməsinə yardım edir. Bu istiqamətdə elmi araşdırmalar və təcrübələr genişləndirilməlidir [4].

Milli-mənəvi dəyərlərin tədrisi müasir təhsil sistemində vətənpərvərlik və milli şüurun formalaşması üçün zəruridir. Məktəb proqramlarında milli-mənəvi dəyərlərin tətbiqi gənc nəslin milli kimliyini möhkəmləndirir və onların mənəvi inkişafına təkan verir. Dərslərdə folklor nümunələrinin, milli bayramların, tarixi şəxsiyyətlərin təbliği xüsusi əhəmiyyət daşıyır [2].

Pedaqoji aspektdən yanaşsaq milli-mənəvi irsin tədrisində pedaqoji metodlar əsas yer tutur. İnteraktiv təlim, layihə əsaslı təhsil və oyun vasitəsilə uşaqların milli dəyərlərə marağı artırılır. Ailə və ictimaiyyətin dəstəyi ilə uşaqlar milli adət-ənənələri və mənəvi dəyərlər barədə daha dərindən məlumat əldə edirlər. Eyni zamanda, müasir texnologiyalar – virtual muzeylər, elektron dərsliklər və interaktiv oyunlar tədrisin keyfiyyətini yüksəldir [3].

**Aktuallıq:** Azərbaycan xalqının milli-mənəvi irsi ölkənin mədəniyyətinin və tarixinin təməlini təşkil edir. Bu irs, nəsillərdən-nəsillərə ötürülən adət-ənənələr, dəyərlər, etnoqrafik xüsusiyyətlər və mənəvi zənginliklər kimi öz əksini tapır. Müasir dövrdə qloballaşma və texnoloji inkişaf milli dəyərlərin qorunması və inkişaf etdirilməsi məsələsini aktuallaşdırır. Azərbaycan milli-mənəvi irsinin tədqiqi və təşviqi gənc nəslin formalaşmasında, milli özünüdərk və vətənpərvərlik ruhunun güclənməsində mühüm rol oynayır.

**Məqsəd:** Bu məqalənin əsas məqsədi Azərbaycan xalqının milli-mənəvi irsinin tarixdən müasir dövrə qədərki inkişafını araşdırmaq, onun əhəmiyyətini müəyyənləşdirmək və milli dəyərlərin mühafizəsi üçün tövsiyələr verməkdir. Eyni

zamanda, milli irsin təhsil və pedaqoji sahədə rolu və əhəmiyyəti təhlil ediləcək.

**Elmi yeniliyi:** Azərbaycan xalqının milli-mənəvi irsi mövzusu uzun illərdir tədqiqatların mövzusudur, lakin müasir dövrdə bu sahəyə yanaşmalar daha geniş və çoxşaxəli şəkildə yenilənmişdir. Ənənəvi yanaşmalarla yanaşı, bu gün milli-mənəvi irsin tədrisində və qorunmasında informasiya texnologiyalarının, interaktiv təlim metodlarının və müasir pedaqoji yanaşmaların tətbiqi yeni tədqiqat istiqamətlərini formalaşdırır. Bu işdə milli-mənəvi irsin təhsil prosesində inteqrasiyası və XXI əsrin çağırışlarına uyğun olaraq gənc nəsildə milli-mədəni dəyərlərin formalaşdırılması sahəsində yeni metodoloji yanaşmalar araşdırılır. Belə ki, mövzu çərçivəsində ilk dəfə olaraq milli-mənəvi irsin tədrisində rəqəmsal resursların istifadəsi və onların pedaqoji effektivliyi nəzərdən keçirilir. Eyni zamanda, mövzu milli dəyərlərin qorunması və inkişafı istiqamətində sosial dəyişikliklər və qloballaşma prosesləri fonunda Azərbaycan təhsil sisteminin rolu ilə bağlı aktual problemləri ortaya qoyur. Bu isə mövzunun cəmiyyət və təhsil sahəsindəki mövcud problemlərə cavab verən yenilikçi aspektlərini nümayiş etdirir.

**Materiallar və metodlar.** Tədqiqatın material bazası Azərbaycan xalqının milli-mənəvi irsi ilə bağlı tarixi, mədəni və pedaqoji mənbələrdən formalaşmışdır. Buraya xalq ədəbiyyatı nümunələri, folklor və dastanlar, milli adət-ənənələr, sənət və musiqi əsərləri, etnoqrafik və tarixi abidələr, həmçinin müasir pedaqoji ədəbiyyat və təhsil proqramları daxildir. Əlavə olaraq, müasir dövrdə milli-mənəvi irsin tədrisində istifadə olunan elektron dərsliklər, interaktiv oyunlar, virtual muzeylər və multimedia resursları tədqiqat materialı kimi nəzərə alınmışdır.

Metodoloji yanaşma olaraq araşdırmada analitik-deskriptiv metod tətbiq edilmişdir. Tarixi-metodik yanaşma çərçivəsində milli-mənəvi irsin formalaşma mərhələləri və onun mədəni kontekstdə rolu təsvir olunmuşdur. Pedaqoji aspektlər isə müqayisəli təhlil metodu ilə araşdırılmış, ənənəvi və müasir təlim texnologiyalarının milli dəyərlərin tədrisində səmərəliliyi qiymətləndirilmişdir. Tədqiqat həm təsvir, həm də təhlil mərhələlərini əhatə edərək materialların strukturlaşdırılması, onların təhlili və interpretasiyası yolu ilə nəticələrin elmi əsaslılığını təmin etmişdir.

Beləliklə, bu yanaşma milli-mənəvi irsin tədrisində istifadə olunan materialların və metodların sistemli təhlilini mümkün etmiş, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin müasir təhsil prosesinə inteqrasiyasının elmi əsaslarını ortaya qoymuşdur.

**Nəticə və müzakirə.** Azərbaycan xalqının formalaşdırdığı mənəvi irs elementləri – dil, din, adət-ənənə, sənət və folklor nümunələri - müasir dövrdə milli şüurun formalaşmasında və təhsildə mühüm yer tutur. Məqalədə bu dəyərlərin təhsil sistemində təbliği və qorunması məsələlərinə də toxunulur.

Azərbaycanın milli-mənəvi irsi qədim dövrlərdən başlayaraq zəngin folklor, ədəbiyyat, musiqi, incəsənət və adət-ənənələrdə öz əksini tapmışdır. Tarixi şəraitdə müxtəlif mədəni təsirlər olsa da, Azərbaycan xalqı öz milli kimliyini qoruyub saxlamışdır. Mədəni irsə aid nümunələr, o cümlədən dastanlar, mahnılar, rəqslər, milli geyimlər və əl işləri xalqın mənəvi dünyasını əks etdirir [1].

Müasir dövrdə milli-mənəvi irsin qorunması üçün təhsil sistemində yeni yanaşmalar tələb olunur. Tədqiqatlar göstərir ki, milli dəyərlərin tədrisində müasir pedaqoji texnologiyaların tətbiqi və innovativ metodların istifadəsi gənc nəsildə milli şüurun gücləndirilməsinə yardım edir. Bu istiqamətdə elmi araşdırmalar və təcrübələr genişləndirilməlidir

Milli-mənəvi irsin tədrisi məktəb və ali təhsil müəssisələrində milli şüurun formalaşması üçün əsas vasitədir. Təhsil proqramlarında milli-mənəvi dəyərlərin daxil edilməsi şagirdlərin öz köklərini, mədəniyyətini və adət-ənənələrini dərindən tanımasına şərait yaradır. Bu, vətənpərvərlik və mədəni identiklik hissinin inkişafına kömək edir. Məqalənin sonunda milli-mənəvi irsin qorunmasının təhsildə və cəmiyyətdə əhəmiyyətindən bəhs edilir, eyni zamanda müasir pedaqoji yanaşmalarla bu dəyərlərin gələcək nəsillərə ötürülməsi yolları göstərilir.

**Yekun nəticə.** Azərbaycan xalqının milli-mənəvi irsi onun tarixi kökləri, mədəni ənənələri və etnik-mədəni zənginlikləri ilə milli kimliyin formalaşmasında əsas amildir. Bu irsin qorunması və gələcək nəsillərə ötürülməsi milli mədəniyyətin davamlılığı üçün vacibdir. Müasir

dövrdə milli-mənəvi dəyərlərin tədris və maarifləndirmə sahəsində daha geniş tətbiqi zəruridir. Bununla yanaşı, milli irsin dünya mədəniyyətləri ilə dialoqu Azərbaycan xalqının beynəlxalq səviyyədə tanınmasına və milli həmrəyliyin möhkəmlənməsinə xidmət edir.

Azərbaycan xalqının milli-mənəvi irsi, onun zəngin tarixi və mədəni dəyərləri ilə milli kimliyin formalaşmasında mühüm rol oynayır. Bu irs, xalqın dünya görüşünü, əxlaqını, həyat tərzini, adət-ənənələrini və mədəni ənənələrini əks etdirir. Tarix boyu formalaşan və nəsildən-nəslə ötürülən bu dəyərlər Azərbaycan xalqının özünəməxsusluğunu qoruyub saxlamasına və milli şüurun möhkəmlənməsinə səbəb olmuşdur. Müasir dövrdə qloballaşmanın və informasiya cəmiyyətinin inkişafı ilə milli-mənəvi irsin qorunması, təbliği və inkişaf etdirilməsi xüsusilə aktuallaşır. Hər bir ölkənin milli dəyərləri onun mədəni təhlükəsizliyinin əsas sütunudur. Azərbaycanda milli-mənəvi irsin öyrənilməsi və tədris prosesində tətbiqi, gənc nəsilin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün vacibdir. Bu, eyni zamanda milli həmrəyliyin və milli-mədəni dəyərlərə hörmətin artırılmasına xidmət edir.

Pedaqoji sahədə milli-mənəvi irsin tədrisi müasir təhsil proqramlarına inteqrasiya edilməli, məktəblərdə və ali təhsil müəssisələrində bu mövzu geniş şəkildə işıqlandırılmalıdır. Milli-mənəvi dəyərlərin tədrisi vasitəsilə təkcə milli kimliyin qorunması deyil, həm də ümumbəşəri humanist dəyərlərin inkişafı təmin edilir. Bu, təhsilalanların həm milli, həm də qlobal səviyyədə maariflənməsinə və inteqrasiyasına şərait yaradır.

Bundan əlavə, milli-mənəvi irsin qorunması dövlətin mədəni siyasətinin prioritet istiqaməti olmalı, müvafiq qanunvericilik və proqramlar hazırlanmalı, müasir kommunikasiya vasitələri və texnologiyalar tətbiq edilməlidir. Bu sahədə dövlət, təhsil müəssisələri, ictimai təşkilatlar və media birgə fəaliyyət göstərməlidir.

Nəticə etibarilə, Azərbaycan xalqının milli-mənəvi irsi onun milli kimliyinin və mədəni davamlılığının əsas zəminidir. Bu irsin gələcək nəsillərə doğru və tam şəkildə çatdırılması ölkənin mədəni və sosial inkişafı üçün vacib şərtdir. Milli-mənəvi dəyərlərin təhsil və maarifləndirmə sahəsində fəal tətbiqi həm də ölkəmizin beynəlxalq mədəni məkanda layiqli yer tutmasına imkan verəcəkdir. Beləliklə, milli irsin qorunması və inkişafı gələcəyin maarifli, milli ruhda tərbiyə olunan və dünyaya açıq vətəndaşlarının yetişməsinə xidmət edir. Beləliklə, araşdırma milli-mənəvi irsin müasir təhsil prosesinə inteqrasiyası və onun pedaqoji təsiri istiqamətində yenilikçi konseptual yanaşmalar təqdim etməklə elmi biliklərə töhfə verir.

**Ədəbiyyat:**

1. Dadaşova, T. Azərbaycan xalqının milli-mənəvi irsi və tədris məsələləri / T.Dadaşova. – Bakı: Təhsil, – 2017
2. Hüseynova, F. Milli-mənəvi dəyərlərin tədrisi və tərbiyədə rolu / F.Hüseynova. – Bakı: Elm, – 2019
3. Qənizadə, R. Müasir pedaqoji texnologiyalar və milli-mənəvi tərbiyə / R.Qənizadə. – Bakı: Təhsil Akademiyası, – 2020
4. Dadaşova, T. Milli dəyərlərin tədrisində innovativ metodlar // Pedaqoji Elmlər Jurnalı, – Bakı, – 2018. 3(12). – s. 88-94.
5. Əliyev, R. Azərbaycan xalqının milli-mənəvi irsi / R.Əliyev. – Bakı: Elm, – 2018
6. Həsənov, M. Azərbaycan mədəniyyəti və ənənələri / M.Həsənov. – Bakı: Təhsil, – 2020
7. Məmmədova, N. Milli irsin qorunması və müasir çağırışlar // Mədəniyyət və incəsənət. – Bakı, – 2019

**İnternet resursları:**

1. mədəniyyət.gov.az
2. unesco.org/culture/ich
3. azertag.az
4. aztv.az
5. culture.az

*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 25.08.2025, son daxilolma – 23.09.2025, qəbulolunma – 05.12.2025